**Dövlət Əmək Müfəttişliyi Xidmətinin 2024-cü il ərzində görülmüş işlərə dair hesabatı**

2024-cü il ərzində Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Əmək Müfəttişliyi Xidməti (bundan sonra – Xidmət) tərəfindən aşağıdakı istiqamətlər üzrə müvafiq tədbirlər həyata keçirilmişdir:

- **Əmək hüquqları ilə bağlı daxil olmuş müraciətlərin araşdırılması üzrə**

Xidmət tərəfindən 2024-cü il ərzində "Vətəndaşların müraciətləri haqqında" Azərbaycan Respublikası Qanununun tələblərinə uyğun olaraq vətəndaşlardan daxil olmuş **23222** şikayət məzmunlu ərizə, eləcə də müxtəlif müəssisə, idarə və təşkilatlar tərəfindən göndərilmiş **19496** sorğu və məktub araşdırılaraq cavablandırılmışdır. Ərizələrin **7223**-ü qadın, **15999**-u isə kişilərə məxsusdur.

Müxtəlif orqanlardan daxil olmuş materialların və vətəndaş müraciətlərinin araşdırılması zamanı **2665** halda işəgötürənlər və onların vəzifəli şəxsləri tərəfindən əmək qanunvericiliyinin tələblərinin pozulduğu aşkar edilmişdir.

Xidmət tərəfindən görülmüş tədbirlər nəticəsində vətəndaşlara gecikdirilmiş və ödənilməli olan **213102,7 AZN** məbləğində vəsaitin ödənilməsi təmin edilmişdir.

Həmin ödənişlərdən:
**88,6**%-i (**189011,83** AZN) - əmək haqqı;
**1,2** %-i (**2204** AZN) - zərərə görə ödənc;
**10,2**%-i (**21886,87** AZN) - sosial müavinət və kompensasiyadan ibarət olmuşdur.

Hesabat dövründə əmək müqavilələrinə qanunvericiliyin tələbləri pozulmaqla xitam verilmiş **61** nəfər öz əvvəlki işinə bərpa edilmişdir. Eyni zamanda işçilərin əmək hüquqlarının bərpası ilə əlaqədar **683** işəgötürənə icrası məcburi olan göstəriş verilmişdir.

Hesabat dövründə Xidmətin vəzifəli və rəhbər şəxsləri tərəfindən **11 335** vətəndaş qəbul edilmişdir.

Vətəndaş müraciətlərinə baxılmasını daha operativ və şəffaf şəraitdə həyata keçirmək məqsədilə Bakı, Bərdə şəhərlərində və Abşeron rayonunda Dayanıqlı və Operativ Sosial Təminat Agentliyinin "DOST" Mərkəzlərində vətəndaş müraciətlərinin qəbul edilməsi, baxılması, izahatların alınması və protokolların yazılması həyata keçirilmişdir. Şikayətlərə baxılması (izahatların alınması, protokolların yazılması və s.) prosesi xüsusi video müşahidəli otaqlarda həyata keçirilmişdir.

Vətəndaşlarla çevik və operativ əlaqə və əks əlaqələrin qurulması, onların şikayətlərinin daha operativ araşdırılması üçün zənglərin əmək və sosial müdafiə sahəsində ixtisaslaşmış **"142" Çağrı mərkəzi**nə yönləndirilməsi təmin edilmişdir.

İşəgötürənlərlə inzibati xətalarla bağlı işlərin videokonfrans vasitəsilə müzakirəsi ZOOM platforması üzərindən həyata keçirilmişdir.

Xidmətin sosial şəbəkə hesablarından daxil olan vətəndaş şikayətləri araşdırılmaya yönləndirilmiş, "chat-botlar", sosial şəbəkələr və "WhatsApp" nömrəsi ilə vətəndaşların sualları birbaşa cavablandırılmışdır.

- **"Əmək və Məşğulluq" altsistemindən (ƏMAS) istifadənin təkmilləşdirilməsi üzrə**

"Azərbaycan Respublikasının Əmək Məcəlləsində dəyişiklik edilməsi barədə" 2024-cü il 28 iyun tarixli 1195-VIQD nömrəli Azərbaycan Respublikası Qanununa əsasən əmək müqavilələrinin elektron sənəd formasında bağlanılmasına başlanılmışdır. Eyni zamanda

“İşəgötürənlər tərəfindən əmək müqavilələrinin elektron sənəd formasına keçirilməsi mərhələlərinin müəyyən edilməsi haqqında” Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarına əsasən 28 iyun 2024-cü il tarixindən əvvəl bağlanmış qüvvədə olan əmək müqavilələrinin işəgötürənlər tərəfindən elektron sənəd formasına keçirilməsi mərhələləri müəyyən edilmiş və bununla bağlı müvafiq bildirişlər işəgötürənlərə ƏMAS üzərindən göndərilmişdir.

Elektron əmək müqaviləsinə keçidlə bağlı 12 avqust 2024-cü il tarixdən aşağıdakı tədbirlər görülmüşdür:

- Dövlət sektoru üzrə tabeli qurumlara məktublar ünvanlanmışdır;
- İşəgötürənlərin və işçilərin ƏMAS-da mövcud olan şəxsi kabinetlərinə bildirişlər yerləşdirilmişdir;
- ƏMAS-da “onlayn əmək müqaviləsinə keçid” mövzusunda video təlimatlar hazırlanıb sistemə əlavə edilmişdir;

Qeyri-formal məşğulluq səviyyəsinin aşağı salınması, əmək müqavilələrinin kağız üzərində deyil, elektron qaydada bağlanması, kadr kargüzarlığının elektron müstəviyə keçirilməsi, əmək münasibətləri sahəsində rəqəmsal göstəricilərin reallığa uyğunlaşdırılması, işəgötürənlər tərəfindən sui-istifadə hallarının qarşısının alınması və proaktiv nəzarət tədbirlərinin təşkili, işçilərin hüquqlarının təmin edilməsi səviyyəsinin artırılması məqsədilə ƏMAS-da aşağıdakı funksionallıqlar yaradılmışdır:

- İşçilər tərəfindən işəgötürənlərə birbaşa, onlayn qaydada şəxsi kabinet vasitəsilə müraciət etmək imkanının yaradılması;
- ƏMAS-ın təqdim olunmuş arayışlar bölməsinə məhkumluq və tibbi arayışların inteqrasiya edilməsi;
- Kadr karğüzalığına daxil olan ərizə və əmrlərin yaradılması funksionallığının yaradılması;
- İşçilərin ixtisarı zamanı işdə saxlanmağa üstünlüyü olan şəxslər barədə ƏMAS-a bildirişin daxil edilməsi;
- Əmək müqaviləsinin ləğv olunması qadağan edilən işçilər və halların ƏMAS-da nəzərə alınması;
- Müddətsiz əmək müqaviləsinə xitam verilən zaman Əmək Məcələsinin müvafiq maddələri ilə (68.2b, 73.1 və 73.2-ci) xitam əmrinin daxil edilməsinə məhdudiyyətin tətbiq edilməsi;
- Əmək Məcəlləsinin 215-ci maddəsinə əsasən əmək müqaviləsinin elektron formasına işçilərin əməyin mühafizəsi normaları və qaydaları üzrə təlimatlandırılması ilə bağlı funksionallığın yaradılması;
- Növbə cədvəllərinin daxil edilməsi;
- Təqdim olunan arayışlar bölməsinə “Digər ünvanlanan arayışlar” altbölməsi daxil edilmişdir. Həmin bölmədən viza almaq, kredit almaq, ipoteka krediti almaq və digər arayışların tərtib edilməsi funksionallığı;
- 6 günlük iş rejimi seçim etdikdə iş vaxtlarının daxil edilməsi funksionallığı;
- Qeyri-dövlət sektoru üzrə əmək müqavilәsi daxil edən zaman məşğulluq təsnifatı üzrə məhdudiyyət (dövlət qulluğu vəzifələri);
- Dənizdə işləyən işçilərin iş vaxtının normasının ƏMAS-da nəzərə alınması və s.

2024-cü il ərzində işəgötürənlər tərəfindən işçilərin “İstehsalatda bədbəxt hadisələr və peşə xəstəlikləri nəticəsində peşə əmək qabiliyyətinin itirilməsi hallarından icbari sığorta haqqında” Azərbaycan Resbublikasının Qanununa və Azərbaycan Respublikası Əmək Məcəlləsinin 155-ci maddəsinin 3-cü hissəsinə əsasən aylıq iş vaxtı normasını işləmiş və əmək funksiyasını yerinə yetirmiş işçinin aylıq əmək haqqısının dövlət tərəfindən müəyyən

edilmiş minimum əmək haqqı məbləğindən aşağı müəyyən edilməməsi üçün Xidmət tərəfindən işəgötürənlərə ƏMAS-da xəbərdarlıqların yerləşdirilməsi, sms bildirişlərin, məktubların göndərilməsi, onlarla görüşlərin keçirilməsi kimi tədbirlər görülmüşdür.

### ❖ Uşaq əməyi və məcburi əməyin qarşısının alınması üzrə

2024-cü il ərzində Xidmətə dövlət orqanlardan daxil olmuş materialların araşdırılması zamanı işəgötürən tərəfindən **1 halda** 15 yaşına çatmamış şəxsin işə cəlb edilməsi faktı aşkar edilmiş və bu faktla əlaqədar işəgötürənin vəzifəli şəxsinə İXM-nin 192.8-ci maddəsinə əsasən 1000 AZN, **1 halda** isə uşaqların onların həyatına, sağlamlığına və ya mənəviyyatına təhlükə törədə bilən fəaliyyətə cəlb edilməsi faktı aşkar edilmiş və İXM-nin 192.9-cu maddəsinə əsasən 3000 AZN məbləğində inzibati cərimə tətbiq edilmişdir.

ƏMAS-da Xidmət tərəfindən uşaq əməyinə nəzarətə dair texniki şərt hazırlanaraq DOST RİM-ə təqdim olunmuş və DOST RİM tərəfindən 2025-ci ildə icra edilməsi üçün İş Planına daxil edilmişdir. Beynəlxalq Əmək Təşkilatının "Uşaq əməyinin ən pis formalarının qadağan edilməsinə və onların aradan qaldırılması üçün təcili tədbirlərə dair" 182 nömrəli Konvensiyasından irəli gələn öhdəliklərin yerinə yetirilməsi sahəsində müntəzəm maarifləndirmə tədbirləri həyata keçirilmişdir.

### ❖ Bədbəxt hadisələrin araşdırılması və əməyin mühafizəsi sahəsində işlər üzrə

Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 23 yanvar tarixli 3721 nömrəli Sərəncamı ilə "Milli standartlaşdırma sisteminin beynəlxalq tələblərə uyğunlaşdırılmasına dair 2023-2025-ci illər üçün Dövlət Proqramı" təsdiq edilmişdir. "Milli standartlaşdırma sisteminin beynəlxalq tələblərə uyğunlaşdırılmasına dair 2023-2025-ci illər üçün Dövlət Proqramı" üzrə Tədbirlər Planının 8.2.3-cü icrası ilə əlaqədar Xidmət tərəfindən prioritet standartlar seçilərək "Azərbaycan Standartlaşdırma İnstitutu" PHŞ-yə göndərilmişdir. 21 dekabr 2024-cü il tarixə olan məlumata əsasən 57 standart "Azərbaycan Standartlaşdırma İnstitutu" PHŞ (AZSTAND) tərəfindən dövlət standartı kimi qəbul edilmişdir.

### ❖ "Əməyin Mühafizəsi Mərkəzi" publik hüquqi şəxsin fəaliyyəti üzrə

Azərbaycan Respublikası Prezidentinin 23 may 2023-cü il tarixli Fərmanı ilə Xidmətin tabeliyində yaradılmış "Əməyin Mühafizəsi Mərkəzi" publik hüquqi şəxsi ixtisaslaşmış qurum olaraq işəgötürənlərə əməyin mühafizəsi və iş yerlərinin attestasiyası sahələrində xidmətlər göstərir, təlimlər keçir, məsləhətlər verilməsi və metodiki dəstək göstərilməsi istiqamətlərində fəaliyyət göstərir.

Mərkəzin fəaliyyətinin qurulmasında Türkiyə Respublikasının təcrübəsindən istifadə edilmiş və əməkdaşlıq çərçivəsində qarşılıqlı səfərlər həyata keçirilmişdir.

Naxçıvan Muxtar Respublikasında Əməyin Mühafizə Mərkəzinin filialının yaradılması ilə bağlı tədbirlər çərçivəsində filialın əsasnaməsi və ştat cədvəli təsdiq edilmiş, maliyyələşmə mənbəyi müəyyən olunmuşdur.

Mərkəz tərəfindən Dövlət Tibbi Sosial Ekspertiza və Reabilitasiya Agentliyinin tabeliyində "Protez-Ortopedik İstehsalat və Reabilitasiya Mərkəzi"ndə və Azərbaycan Milli İncəsənət Muzeyində iş yerlərinin attestasiyası keçirilmişdir.

Dövr ərzində Bakı şəhəri üzrə 2 və daha çox bədbəxt hadisə baş vermis müəssisələrdə ümumilikdə, 600 nəfərin iştirak etdiyi "Əməyin Mühafizəsi və Texniki Təhlükəsizlik"

mövzusunda 21 ödənişsiz təlim keçirilmişdir.

### ❖ Korrupsiyanın qarşısının alınması və kadr potensialının inkişafı üzrə

Xidmətin Aparatında İSO 37001 beynəlxalq standartının tələblərinə uyğun olaraq Aparatın struktur bölmələrində daxili audit yoxlamaları həyata keçirilmişdir.

Xidmətin Tədbirlər planına uyğun olaraq Nazirliyin Daxili nəzarət və audit şöbəsi ilə birgə il ərzində Lənkəran-Astara, Şirvan-Salyan, Mərkəzi Aran, Qazax-Tovuz regional şöbələrində və Naxçıvan Muxtar Respublikası Dövlət Əmək Müfəttişliyi Xidmətində yoxlamaların keçirilməsi təmin edilmişdir. Eyni zamanda Sənədlərlə və vətəndaşların müraciətləri ilə iş şöbəsi ilə birgə Abşeron-Xızı, Quba-Xaçmaz, Dağlıq Şirvan, Şəki-Zaqatala, Qazax-Tovuz və Gəncə-Daşkəsən regional şöbələrində, Bakı şəhər İdarəsində və Naxçıvan Muxtar Respublikası Dövlət Əmək Müfəttişliyi Xidmətində monitorinqlər keçirilmişdir.

Vətəndaş müraciətlərinin qanunvericiliyin tələblərinə uyğun araşdırılması ilə bağlı mütəmadi monitorinqlər aparılmış, şikayətlər araşdırılmış, pozuntu halları aşkar edildiyi zaman pozuntuya yol vermiş əməkdaşlarla bağlı müvafiq intizam məsuliyyəti tədbirləri görülmüşdür.

İşə qəbul olunan yeni əməkdaşlara Xidmət tərəfindən "İSO 37001" beynəlxalq standartının tələbinə uyğun olaraq "Antikorrupsiya İdarəetmə Sistemləri və Siyasətlər" mövzusunda 78 nəfər əməkdaşa təlimlər təşkil olunmuşdur.

Eyni zamanda Xidmətin Aparatı, Bakı şəhər İdarəsi və regional şöbələrində çalışan müfəttiş və hüquqşünasların peşə biliklərinin artırılması üçün "Əmək qanunvericiliyinin tətbiqi", "Əməyin mühafizəsi", "Əmək və Məşğulluq Alt Sistemi" və "İnzibati Xətalar Məcəlləsinin tətbiqi" mövzularında ümumilikdə 261 əməkdaşın iştirakı ilə daxili funksional təlimlər keçirilmişdir.

### ❖ Qanunvericiliyin təkmilləşdirilməsi üzrə

"Azərbaycan Respublikasının Əmək Məcəlləsində dəyişiklik edilməsi barədə" 2024-cü il 28 iyun tarixli 1195-VIQD nömrəli Azərbaycan Respublikası Qanunu 12 avqust 2024-cü il tarixdə qüvvəyə minmişdir.

Azərbaycan Respublikası Əmək Məcəlləsinin 74-1-ci maddəsinə dəyişiklik edilməsi haqqında Qanun layihəsi hazırlanmış, Nazirliyin aidiyyəti şöbələrinə göndərilmiş və onların rəyləri əsasında yenidən hazırlanmış layihə həmin şöbələrə münasibət bildirilməsi üçün təkrar təqdim edilmişdir.

"İş yerlərinin attestasiyasının keçirilməsi Qaydalarının təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2000-ci il 6 mart tarixli 38 nömrəli Qərarına dəyişiklik edilməsi haqqında Qərar layihəsi hazırlanmışdır.

"İstehsalatda baş verən bədbəxt hadisələrin təhqiqi və uçota alınması Qaydalarının təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2000-ci il 28 fevral tarixli 27 nömrəli Qərarına dəyişiklik edilməsi haqqında layihə "İnzibati icraat haqqında" Azərbaycan Respublikası Qanununa uyğun hazırlanmışdır, hazırda baxılmaqdadır.

"Fərdi mühafizə vasitələrinin təhlükəsizliyi haqqında milli texniki reqlament"in təsdiq edilməsi haqqında Qərar layihəsi hazırlanmış və ekspertizasının keçirilməsi üçün İqtisadiyyat Nazirliyinə təqdim edilmişdir. İqtisadiyyat Nazirliyinin rəyi əsasında Xidmətdə layihəyə müvafiq düzəlişlər edilmiş və baxılması üçün Nazirliyin aidiyyəti şöbələrinə göndərilmişdir. Həmin şöbələr tərəfindən münasibət bildirilmiş layihənin Xidmətdə hazırda əsaslandırılması hazırlanır.

Əməyin mühafizəsinə dair normaların təkmilləşdirilməsi ilə bağlı Azərbaycan Respublikasının Əmək Məcəlləsinə dəyişiklik edilməsi haqqında Qanun layihəsi hazırlanmış və hazırda Xidmətdə müzakirə edilməkdədir.

### ❖ Həyata keçirilən layihələr üzrə

Xidmət, Əməyin Mühafizəsi Mərkəzi və Əmək Bazarı və Sosial Müdafiə Məsələləri üzrə Milli Observatoriya ilə birgə həyata keçirilən "DOST Müfəttiş" layihəsinin məqsədi insan resurslarının idarə edilməsi, əmək qanunvericiliyinin tətbiqi, əməyin mühafizəsi və elektron altsistemlərdən istifadə üzrə işəgötürənlərə metodiki dəstək göstərməkdir.

Layihə inkişaf etmiş ölkələrdə geniş yayılmış "self-inspection" (özünü təftiş) modelini tətbiq etməklə müəssisələrin daxili proseslərini təkmilləşdirməsinə, risklərin vaxtında müəyyən edilərək aradan qaldırılmasına şərait yaradır. Könüllü müraciət əsasında ekspertlər tərəfindən aparılan diaqnostik qiymətləndirmələr mövcud boşluqları aşkar edir və onların həlli üçün məsləhətlər təqdim edilir. Layihə çərçivəsində məxfi məlumatların qorunması təmin edilir və aşkar olunan pozuntularla bağlı inzibati cərimə tətbiq edilmir. Bu günədək layihə 2 müəssisədə uğurla həyata keçirilmişdir.

İşçi və işəgötürənlərin hüquq və vəzifələri, o cümlədən əmək bazarının çevikliyi mövzusunda maarifləndirmə tədbirlərinin həyata keçirilməsi, o cümlədən qeyri-formal məşğulluğun qarşısının alınmasına yönəldilmiş məlumatlandırma və təbliğat işlərinin təşkili və könüllülərin Xidmətinin əmək hüquqları və əmək qanunvericiliyinin tələblərinə əməl olunmasının təmini sahəsindəki rolu barədə məlumatlandırılması məqsədilə növbəti “DOST to DOST” (D2D) layihəsi həyata keçirilmişdir. Layihənin “Əmək hüquqları” adlı təlim proqramı çərçivəsində gənc könüllülər üçün 5 təlim keçirilmişdir. Həmçinin istehsalat prosesinin yaxından izlənilməsi və əməyin təhlükəsizliyi qaydaları ilə yerində tanış olmaları üçün layihə iştirakçı olan könüllülərin Sumqayıt STP-də “Azerfloat” QSC-yə infoturu təşkil edilmişdir.

“Əməyin Mühafizəsi Mərkəzi” PHŞ tərəfindən müəssisələrdə əməyin mühafizəsi üzrə “Nümunəvi müəssisə” layihəsinə start verilmişdir. Layihənin məqsədi seçilmiş müəssisədə əməyin mühafizəsi standartlarına uyğun təhlükəsiz iş şəraitinin yaradılması və nümunəvi müəssisənin təcrübəsinin öyrənilməsindən ibarətdir.

“Nümunəvi müəssisə” layihəsi çərçivəsində Mərkəzlə “Azerfloat” QSC arasında imzalanmış müqaviləyə əsasən 18 işəgötürənin müəssisəyə infoturu təşkil edilmişdir. İnfotur barədə press-reliz və video icmal Xidmətin rəsmi səhifəsində və sosial şəbəkə vasitələrində yayımlanmışdır.

### ❖ İctimaiyyətlə əlaqələr və maarifləndirici tədbirlər üzrə

2024-cü il ərzində işçilərin əmək hüquqları sahəsində müxtəlif mövzularda işəgötürənlərin və işçilərin maarifləndirilməsi məqsədilə Bakı şəhərini və ölkənin regionlarını, o cümlədən işğaldan azad edilmiş ərazilər əhatə edən 14530 nəfərin işirak etdiyi 159 maarifləndirmə tədbir və təlimi keçirilmişdir:

- Təsdiq edilmiş tədbirlər planı üzrə əmək münasibətləri ilə əlaqədar işçi və işəgötürənlərin maarifləndirilməsi məqsədilə **47 tədbir** keçirilmişdir;
- “Əmək və məşğulluq” altsistemində (ƏMAS) müqayisəli olaraq qadınların daha az işə cəlb olunduğu işəgötürənlərin müəyyən edilməsi (iqtisadi fəaliyyət sahələri üzrə) məqsədilə təhlillər aparılmış və müvafiq işəgötürənlərin regionlar üzrə siyahısı hazırlanmışdır. Qadınların işə cəlb edilməsinin təşviqi məqsədilə Xidmətin təşkilatçılığı ilə Nazirliyin Əmək siyasəti şöbəsi tərəfindən sentyabr-oktyabr ayları ərzində **14 maarifləndirmə tədbiri** keçirilmişdir;
- 28 Aprel Əməyin Mühafizəsi Günü ilə əlaqədar Xidmətin təşkilatçılığı ilə Əmək siyasəti şöbəsi tərəfindən respublikanın müxtəlif regionlarda “Dəyişən iqlim şəraitində əməyin

mühafizəsinin təşkili" kampaniyası çərçivəsində aprel ayında **4** (Bakı, Şəki, Gəncə və Bərdə şəhərlərində) maarifləndirmə tədbiri keçirilmişdir;

- "Əmək qanunvericiliyinə edilmiş dəyişikliklər və ƏMAS-da yardılmış yeni funksionallıqlar"la bağlı **2 iri həcmli tədbir** (Bakı və Oğuz şəhərlərində) keçirilmişdir. Bakı şəhərində keçirilmiş tədbirdə Xidmətin, Xidmətin tabeliyində Əməyin Mühafizəsi Mərkəzi və Nazirliyin tabeliyindəki Əmək Bazarı və Sosial Müdafiə Məsələləri üzrə Milli Observatoriyanın birgə layihəsi olan "DOST Müfəttiş" barədə ətraflı məlumat verilmişdir. Tədbir Xidmətin, Milli Observatoriyanın rəsmi internet səhifələrində və sosial şəbəkələrdə, DOST TV-nin xəbərlərində və KİV üzərindən (REPORT İA, APA İA , AZƏRTAC, "oxu.az" saytı, "sizinxəbər.az" saytı və s.) ictimaiyyətə təqdim edilmişdir;
- 2023-cü ildən başlayaraq işğaldan azad edilmiş ərazilərdə fəaliyyət göstərən müəssisələrdə əməyin mühafizəsinə dair təşkil edilən təlimlər təşkil olunmuşdur. Tədbirlər 2024-cü ilin may ayından etibarən layiqli əməyin təminatına dövlət dəstəyi ilə bağlı Xidmət və Xidmətin tabeliyindəki Əməyin Mühafizəsi Mərkəzinin təşkilatçılığı ilə Azərbaycan Respublikasının Minatəmizləmə Agentliyi, Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyası, Azərbaycan Respublikasının Kiçik və Orta Biznesin İnkişafı Agentliyi və Nazirliyin tabeliyindəki Dövlət Məşğulluq Agentliyi ilə birgə davam etdirilmişdir. 2024-cü il ərzində 3800 şəxsi əhatə edən 44 tədbir keçirilmişdir. Layihəyə 2023-2024-cü illər ərzində ümumilikdə Xankəndi, Laçın, Xocavənd, Füzuli, Cəbrayıl, Qubadlı, Zəngilan, Ağdərə, Kəlbəcər, Ağdam və Xocalıda fəaliyyət göstərən 200 işəgötürən üzrə 5000 nəfəri əhatə edən **76 təlim** keçirilmişdir;
- Qanunvericiliyə edilmiş dəyişikliklər və ƏMAS-da yaradılmış yeni funksionallıqlarla bağlı həm onlayn, həm də əyani təlimlər təşkil edilmişdir. "Əmək qanunvericiliyinə edilmiş dəyişikliklər və "Əmək və məşğulluq altsistemi"ndə yaradılmış yeni funksionallıqlar"la bağlı keçirilən **20 əyani təlim**də (son 6 tədbirdə "Buisness READY" hesabatı haqqında məlumatlandırma olub) 400 nəfər iştirak etmişdir. Keçirilən 18 onlayn təlimlərdə isə 1800 nəfərədək iştirakçı olmuşdur.
- 2024-cü ilin 15 may tarixindən 22 may tarixinədək Bakı şəhərində yerləşən **5** orta məktəbdə şagirdlər üçün "Uşaqların əmək hüquqları" mövzusunda **təlim** keçirilmişdir.

Hesabat dövründə yerli televiziya və radiolarda Xidmət əməkdaşlarının əmək qanunvericiliyinin tələblərini əks etdirən **90-dan çox müsahibə və açıqlama** yayımlanmışdır. Bakıda olan işəgötürənlər, həmçinin hökumət və qeyri-hökumət nümayəndələrinin iştirakı ilə əmək qanunvericiliyinin tələblərinin təmin edilməsi üzrə mart ayında "Qadınların əmək hüquqları"mövzusunda ictimai dinləmə təşkil edilmişdir.

"Xidmətin 2024-cü il üçün təsdiq edilmiş Tədbirlər Planı"na uyğun olaraq uşaq əməyinin istismarının qarşısının alınması sahəsində işəgötürənlərin maarifləndirilməsi məqsədilə il ərzində "Uşaqların əmək hüquqları. Məcburi əmək və insan alverinin qarşısının alınması" mövzusunda Lənkəran, Salyan, Tovuz, Naxçıvan və Quba rayonlarında 5 maarifləndirmə tədbiri keçirilmişdir.

Beynəlxalq Əmək Təşkilatının Konvensiyaları və Azərbaycan Respublikasının qanunvericiliyi əsasında qeyri-formal məşğulluğun qarşısının alınması üzrə 2, uşaq əməyi üzrə 3, analığın mühafizəsi üzrə 2 və əməyin mühafizəsi üzrə 5 maarifləndirici qrafik videoçarx Xidmətin sosial şəbəkə səhifələri vasitəsilə ictimaiyyətə təqdim edilmişdir.

"12 iyun – Ümumdünya Uşaq Əməyinə Qarşı Mübarizə Günü" münasibəti ilə videoçarx hazırlanaraq Xidmətin sosial şəbəkə hesablarında paylaşılmışdır. Eyni zamanda mövzu ilə əlaqədar MTV-də yayımlanan "Yeni səhər" proqramında iştirak edilmişdir.

Hesabat dövrü ərzində Xidmət tərəfindən 2 iri miqyaslı konfrans keçirilmişdir:

- 28 Aprel - Ümumdünya Əməyin Mühafizəsi Günü və Naxçıvan Muxtar Respublikasının 100 illik yubileyinə həsr olunmuş "İqlim Dəyişikliyinin Əməyin

Mühafizəsinə Təsiri" mövzusunda 27 aprel tarixində Naxçıvanda konfrans keçirilmişdir. Konfransda dövlət qurumlarının rəhbər vəzifəli şəxsləri, beynəlxalq və qeyri-hökumət təşkilatlarının nümayəndələri, sahibkarlar və digər şəxslər iştirak etmişdir;

- "Yaşıl dünya naminə həmrəylik ili" çərçivəsində, həmçinin Xidmətin 105 illiyi münasibətilə "İşğaldan azad edilmiş ərazilərdə əmək şəraitinin inkişafına dəstək: ətraf mühitin əməyin təhlükəsizliyinə təsiri" mövzusunda 16 oktyabr 2024-cü il tarixində Şuşa şəhərində konfrans keçirilmişdir. Konfransda dövlət orqanlarının rəhbər vəzifəli şəxsləri, beynəlxalq təşkilatların, qeyri-hökumət təşkilatlarının nümayəndələri, işəgötürənlər və onların əməkdaşları iştirak etmişdir.

❖ **Beynəlxalq və yerli təşkilatlatlarla əməkdaşlıq üzrə**

2024-cü il ərzində xarici dövlətlərlə ikitərəfli əməkdaşlıq çərçivəsində əmək qanunvericiliyi sahəsində beynəlxalq təcrübənin öyrənilməsi üçün aşağıdakı tədbirlər həyata keçirilmişdir.

Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiə Nazirliyi və Türkiyə Respublikasının Əmək və Sosial Müdafiə Nazirliyi arasında əmək və sosial müdafiə sahəsində əməkdaşlıq çərçivəsində 10-cu Birgə Daimi Komissiyanın Tədbirlər Planına uyğun olaraq, Xidmətinin nümayəndə heyəti Ankara şəhərində, həmçinin Türkiyə nümayəndə heyəti Bakı şəhərində səfərdə olmuşdur. Bu səfərlər zamanı iki ölkə arasında əmək və sosial müdafiə sahəsindəki təcrübə mübadiləsi, təftiş fəaliyyətlərinin səmərəliliyinin artırılması və avtomatlaşdırma sistemlərinin tətbiqi, Xidmətin tabeliyində yeni yaradılmış "Əməyin Mühafizəsi Mərkəzi"nin fəaliyyətinin təşkili, yeni texnologiyaların tətbiqi və iş yerlərinin attestasiyası barədə təcrübə mübadiləsi aparılmışdır. Əməyin mühafizəsi sahəsində qanunvericiliyin təkmilləşdirilməsi məsələləri müzakirə edilərək Türkiyə modelinin Azərbaycanda tətbiqi imkanları müzakirə edilmişdir.

19 avqust 2024-cü ildə Bakı şəhərində Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi ilə Rusiya Federasiyasının Federal Əmək və Məşğulluq Xidməti arasında "Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi ilə Rusiya Federasiyasının Federal Əmək və Məşğulluq Xidməti arasında qarşılıqlı əməkdaşlıq haqqında Memorandum" imzalanmışdır. Memorandumun icrasına dair Tədbirlər Planı Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Əmək Müfəttişliyi Xidmətinin rəisi Vəli Quliyev ilə Rusiya Federasiyasının Federal Əmək və Məşğulluq Xidmətinin rəhbəri Mixail İvankov tərəfindən 6 dekabr 2024-cü il tarixində Moskva şəhərində imzalanmışdır. Tədbirlər Planı çərçivəsində əməkdaşlığın inkişafı və təcrübə mübadiləsi istiqamətində müvafiq tədbirlərin həyata keçirilməsi nəzərdə tutulmuşdur.

Dövr ərzində Xidmət tərəfindən Mərakeş, Rumıniya, Serbiya, İndoneziya,Tacikistan, Özbəkistan və Türkiyə nümayəndə heyətləri ilə onlayn görüşlər keçirilmiş və əməkdaşlıq üzrə müxtəlif məsələlər müzakirə olunmuşdur.

2024-cü ildə Qazaxıstan Respublikasının Almatı şəhər Əmək Müfəttişliyinin nümayəndəsi Bakıda səfərdə olmuşdur. Beynəlxalq Əmək Təşkilatı (BƏT) ilə əməkdaşlığın genişləndirilməsi məqsədilə BƏT-in ekspertləri və İslam Əmək Təşkilatının Əmək Mərkəzinin nümayəndələri ilə görüşlər keçirilmişdir.

2024-cü il ərzində Xidmətin əməkdaşlarının Dünya Bankı, Beynəlxalq Sosial Təminat Assosiasiyası, SESRİC, BƏT tərəfindən təşkil edilmiş müxtəlif mövzularda keçirirən vebinarlarda iştirakı təmin edilmişdir.

2024-cü ildə Xidmət əmək münasibətlərinin elektronlaşdırılması, "DOST Müfəttiş" layihəsi və rəqəmsal qrafik videoçarxlar üzrə ABŞ, Böyük Britaniya və Sinqapurda keçirilən müsabiqələrdə **21 beynəlxalq mükafat**a layiq görülmüşdür. Xidmət eyni zamanda

Azərbaycan Sənaye Təhlükəsizliyi Assosasiyasının təşkil etdiyi “HSE Awards 2024” müsabiqəsində “HSE Innovation” nominasiyasının ali mükafatına layiq görülmüşdür.

Dövr ərzində “DOST müfəttiş” layihəsinin əhatə dairəsinin genişləndirilməsi və yeni işəgötürənlərin cəlb edilməsinə dəstək göstərilməsi məqsədilə Xidmətin tabeliyində fəaliyyət göstərən Əməyin Mühafizəsi Mərkəzinin, Dövlət Məşğulluq Agentliyinin, Əmək Bazarı və Sosial Müdafiə Məsələləri üzrə Milli Observatoriyanın, Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının, Azərbaycan Respublikası Sahibkarlar (İşəgötürənlər) Təşkilatları Milli Konfederasiyasının nümayəndələri və “Marsol Group“un və “Caspian Energy Club”un üzvlərinin iştirakı ilə görüş keçirilmişdir.

Sosial tərəfdaşlarla əməkdaşlığın gücləndirilməsi, birgə tədbirlərin daha effektiv və planlı təşkili məqsədilə Azərbaycan Sahibkarlar (İşəgötürənlər) Təşkilatları Milli Konfederasiyası və Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyası ilə Xidmət arasında 2023-2024-cü ili əhatə edən Tədbirlər Planına əsasən 2024-cü ildə maarifləndirmə tədbirləri həyata keçirilmişdir.

Dövr ərzində Azərbaycanda Amerika Ticarət Palatası (AmCham), "Caspian Energy Club", Alman-Azərbaycan Xarici Ticarət Palatası, Britaniya-Azərbaycan Xarici Ticarət Palatası, Azərbaycan Sənaye Təhlükəsizliyi Assosiasiyası tərəfindən tədbirlərdə Xidmətin nümayəndələri iştirak etmişdir.

- **Dövlət Əmək Müfəttişliyi Xidmətində çalışan əmək müfəttişləri ilə bağlı statistik məlumat**

Hazırda Dövlət Əmək Müfəttişliyi Xidmətində **189** əmək müfəttişi (rəhbər vəzifədə çalışanlar da daxil olmaqla) çalışır. Cins bölgüsü üzrə statistik məlumatlara əsasən Xidmətdə çalışan əmək müfəttişlərinin **140** nəfəri kişi, **49** nəfəri isə qadınlardır.